UOT 821.513. 612

**Aidə Müseyibova**
*kiçik elmi işçi,*
*AMEA–nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
aidə.museyibova@mail.ru

# TÜRK ALİMİ SƏDRƏDDİN KONƏVİ VƏ ONUN ƏSƏRLƏRİNİN AZƏRBAYCAN ƏLYAZMA MƏCMUƏSİ

**Açar sözlər:** *Sədrəddin Konəvi, sufi alimi, təssəvvüf, məcmuə, əlyazma.*
**Ключевые слова:** *Садр ад-Дин ал-Кунави, суфийский учёный, тассаввуф,сборник, рукопись.*
**Key words:** *Sadraddin Konavi, Sufi scholar, tasavvuf, collection, manuscript.*

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda bir çox alimlərin eləcə də məşhur İslam alimlərinin müxtəlif elm sahələrində yazmış olduqları dəyərli əsərləri qorunub saxlanılır. Bu əsərlər Azərbaycan, ərəb, türk, fars, rus, özbək və s. dillərdə olmaqla həm ayrıca kitab kimi, həm də məcmuə şəklində mühafizə olunmaqdadır. Belə bir əlyazma məcmuəsi məşhur türk sufi-alimi Sədrəddin Məhəmməd b. İshaq b. Məhəmməd b. Yusif Konəvinin dörd əsərindən ibarət əlyazma məcmuəsidir. Əlyazmanın 1a vərəqində kitabın fehristi verilmiş və burada müəllifin "Şərhu əhadisu nəbəviyyə", "Şərhu əsmaullah əl-husna", "Risalə əl-qurbə liş-Şeyx əl-Əkbər" və "Risalə əl-muzadədə liş-Şeyx əl-Əkbər" əsərlərinin adı qeyd olunmuşdur.

Sufi təriqətinin məşhur nümayəndələrindən biri olan Sədrəddin Məhəmməd b. İshaq b. Məhəmməd b. Yusif Konəvinin doğum tarixi haqqında mənbələrdə müxtəlif məlumatlar var. Mənbələrin bəzisi onun h.605/m.1208-ci ildə [1], bəzisi h.606/m.1209-cu ildə [2,420], bəziləri isə h.607/m.1210-cu ildə anadan olmasını[3]qeyd etmişdir.Malatyada dünyaya gələn Sədrəddin Konəvinin atası mütəsəvvif alim və Anadolu Selcuklu dövlətinin saray müşaviri olan Məcdəddin İshaqdır. O, dövrünün tanınmış alimlərindən olanŞeyx Əvhədəddin Kirmanivə Muhyiddin İbni Ərəbidən dini elmləri mənimsəmiş, təssəvvüf elminin sirlərinə yiyələnmişdir. Sədrəddin Konəvi uşaq ikən atasını itirmiş, atasının yaxın dostu və müəllimi olan Muhyiddin İbni Ərəbi onun anası ilə evlənmişdir[4,168]. Bu izdivacdan sonra Konəvi İbni Ərəbiyə daha yaxın olmuş, onların dostluğu İbni Ərəbinin ölümünə qədər davam etmişdir. Sədrəddin Konəvi bir çox İslam ölkərinə səyahət etmiş eləcə də Misir, Şam, Hicazda olmuş və burada yaşayan dövrün görkəmli alim və sufiləri ilə yaxından tanış olmuşdur. Sonra Konyaya gələrək burada üsul, hədis, təfsir və bir çox islam elmlərini tədris etmiş və ömrünün son illərinə qədər burada yaşamışdır. Mənbələrdə verilən məlumata əsasən Sədrəddin Konəvi məşhur sufi alimi Cəlaləddin Rumi ilə yaxın dost olmuş, hətta Mövlanə cənazə namazını Konəvinin qılmasını vəsiyyət etmişdir [5; 6,249]. Lakin Konəvi çox hörmət etdiyi və həyatdan getdiyinə dözə bilmədiyi Cəlaləddin Ruminin cənazə namazını qılarkən huşunu itirmiş, namazı isə Qazi Siracəddin qılmışdır. Sədrəddin Konəvi h.673/m.1274-cü ildə Konyada vəfat etmiş və burada da dəfn olunmuşdur. Hal-hazırda Konyada alimin adına olan məscid və məqbərəsi ziyarətçilərin istifadəsindədir.

Təssəvvüf sahəsində İslam aləminin ən görkəmli sufi-alimi Sədrəddin Konəvi İbni Ərəbinin əsərlərindən bəhrələnərək özü də bu sahədə bir çox əsərlərin müəllifidir. O, İbni Ərəbinin "vəhdəti-vücud" (varlığın birliyi) düşüncəsini mənimsəyərək İbni Ərəbidən sonra növbəti nəsillərə məharətlə çatdırmış və bu sahədə "ən-Nusus fi təhqiqi ət-tavri-l-məxsus" [Vəhdəti vücud və əsasları] və ya sadəcə "Nusus", "Miftah əl-ğeyb əl-cəm və əl-vucud" [Təssəvvüf metofiziki] və s. əsərləri yazmışdır. Bunlardan əlavə o, "Nəfahat əl-ilahiyyə", "əl-Fukuk fi mustənda hikəmə əl-fusus", "Təbsiratu-l-mubtədi və təzkiratu-l-muntəhi",

"Xəriqət ət-təssəvvuf", "ər-Risalə əl-hidayə fi ət-təssəvvuf" və s. kimi dəyərli əsərlərin müəllifidir. Sədrəddin Konəvinin təssəvvüfdən başqa hədis sahəsində: "Şərhu ərbəinə hədis"[Qırx hədisin şərhi], kəlam sahəsində: "Şərhu əsmaullah əl-husna" [Allahın gözəl adlarının şərhi], təfsir sahəsində: "İcaz əl-bəyan fi təfsiri ummi əl-Quran", "Təfsir əl-bəsmələ" və s. əsərlər də yazmışdır. Ümumiyyətlə, Sədrəddin Konəvi İslam dininin müxtəlif sahələrində bu günə qədər məlum olan 55-dən artıq əsərlər qələmə almışdır[7,2606-2610].

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan Sədrəddin Konəvinin əsərlərindən ibarət əlyazmalar məcmuəsinə həm yuxarıda adı çəkilən əsərlərdən bəzisi, həm də adı kataloq və ensiklopediya kitablarına düşməyən əsərlər daxildir. Məcmuənin birinci əsəri olan "Şərhu əhadisu nəbəviyyə" [Peyğəmbər hədislərinin şərhi] əsəri əsasən "Şərhu ərbəinə hədis" [Qırx hədisin şərhi] adı ilə qeyd olunub [2,425; 7,2606, №7062/1]. Bəzi mənbələrdə əsərin adı "Şərhu əhadisi ərbəin" kimi verilib [6,251; 8,1038], "Qamus əl-aləm" kitabının müəllifi Şəmsəddin Sami isə bu əsərin adını qısa olaraq "Şərhu hədis" adı kimi qeyd edib [9,2944]. Əsərin adı bəzi kataloqlarda isə şərhdə verilən iyirmi doqquz hədisin adı ilə "Şərh tisə və işrinə hədisə" kimi adlandırılıb[10, 292,№1594/1].

İslam dininin hədis bölməsindən bəhs edən bu əsərdə Məhəmməd peyğəmbərin (s) iyirmi doqquz hədisinin şərhi verilib. Bura daxil olan hədislər İslam dininin müxtəlif mövzularını: təharət, tövbə, qiyamət günü, imanın şərtləri, Allahın ismi əzəm adı, Allahın Rəhman və Rəhim adları, namaz, Quranın nazil olması, bəsmələ, Adəm peyğəmbərin (ə) xəlq olunması və s. əhatə edir.Hədislər Ənəs b. Malik, Təlhə b. Ubeydulla, Cabir b. Abdulla, Əbu Səid əl-Hudri, Ummu Həbibə və başqa ravilərdən rəvayət olunmuşdur. Həmçinin Sədrəddin Konəvi hədislərin şərhində Əbu İsa Məhəmməd ibn İsa ət-Tirmizinin,Əbu Davud Məhəmməd b. Süleyman b. İshaq əl-Əzdi əs-Sicistaninin, Əbül-Hüseyn Muslim b. Həccac ən-Nisaburinin və başqa islam alimlərinin kitablarindan istifadə etmişdir. Əsər məcmuənin 1b-89b vərəqlərini əhatə edir. Şərh Avropa istehsallı sarımtıl rəngli vərəqə qara mürəkkəblə nəsx xətti ilə köçürülüb. 1a vərəqində əsərin və müəllifin adı kalafonun içində qırmızı rəngli mürəkkəblə yazılıb. Onu da qeyd etmək lazımdır ki, məcmuəyə daxil olan hər dörd əsərin və müəllifin adı bu qaydada qeyd olunmuşdur. Mətn qırmızı rəngli mürəkkəblə çərçivəyə salınmışdır. Həmçinin mətndə "və bəəd" [və sonra], hədislərin sira sayları və bir neçə sözlərin yazılmasında qırmızı mürəkkəbdən istifadə olunmuşdur. Çərçivənin kənarında qara mürəkkəblə müxtəlif istiqamətlərə yazılmış qeydlər var. Orta əsr mətnşünaslığında istifadə olunan şərti işarələr qırmızı və qara mürəkkəblə verilib. Məcmuəyə daxil olan hər bir əsərin əvvəlində kitabın keçmiş sahibinin şəxsi möhürü var. Məcmuə şərq üsulu ilə səhifələnib. Əlyazma məcmuəsinə daxil olan hər bir əsərin sonu kalafonla bitməsinə baxmayaraq burada əsərlərin köçürülmə yeri, katibi və köçürülmə tarixi haqqında heç bir məlumat qeyd olunmamışdır. Lakin mətnlərdə olan hərf səhvlərindən və başqa nöqsanlardan bu məcmuənin şagird tərəfindən yazılması məlum olur. Qapaqlı, qəhvəyi rəngli dəri cildin üzərinə bir böyük medalyon vurulub. Həcmi 186, ölçüsü 11x15 sm.-dir.

Məcmuəyə daxil olan ikinci əsər Allahın gözəl adlarından bəhs edən "Şərhu əsmaullah əl-husna" [Allahın gözəl adlarının şərhi] əsəridir. Bu əsərin də adı kataloqlar və ensiklopediya kitablarında müxtəlif adlarla qeyd olunub. Katib Çələbi müəllifi olduğu "Kəşf əz-zunun" kitabında bu əsərin adını "Şərh əl-əsma əl-husna" kimi[8,1034], bəzi kataloqlarda isə bu əsərin adı geniş olaraq həm "Şərh əl-əsma əl-husna əl-musəmmə bihəqaiq əl-əsma" kimi [10,292,№1594/2] həm də "Həqaiq əl-əsma fi şərh əsmaullah əl-husna" kimi verilmişdir [7,2608,№7062/13]. Bəzi kataloqlarda isə əsərin adı əlyazmada olduğu kimi "Şərhu əsmaullah əl-husna" adı ilə qeyd olunmuşdur [2,424;11]. Əsərin əvvəlində müəllif bu əsərin yazılmasında İslam peyğəmbəri Məhəmməd peyğəmbərin (s) Allahın gözəl adlarından bəhs edən hədisindən bəhrələndiyini yazmışdır. Hədisdə

Məhəmməd peyğəmbər (s) buyurur: "Həqiqətən Allahın doxsan doqquz adı var, kim bunları əzbərləsə cənnətə daxil olar" [12,93a]. Burada doxsan doqquz addan söhbət açılırsa da əsərdə adların sayı göstərilən ədəddən çoxdu. Allah adının şərhi ilə başlayan əsərdə ər-Rəhman, ər-Rəhim, əl-Məlik, əs-Salam, əl-Əziz, əl-Xaliq, əl-Alim, əl-Həkim, əl-Əzim, əl-Kərim, əl-Həkim və başqa adların təssəvvüfdə izahları verilir. Sədrəddin Konəvinin fikrinə görə insanın əxlaqının inkişafı və həqiqətə çatması Allahın adlarının öyrənilməsi ilə mümkündür. Buna görə də Allah adlarının öyrənilməsi təssəvvüfün ən önəmli sahələrindən biri olmuşdur. Əsər məcmuənin 90b-167a vərəqlərini əhatə edir. Məcmuənin birinci əsəri kimi bu şərh də Avropa istehsallı sarımtıl rəngli vərəqə qara mürəkkəblə nəsx xətti ilə köçürülüb. Mətndə bəzi ifadələr və Allah adları qırmızı mürəkkəblə yazılıb. Çərçivənin kənarında müxtəlif istiqamətlərə qara və qırmızı mürəkkəblə yazılmış qeydlər var.

Sədrəddin Konəvinin məcmuəyə daxil olan üçüncü əsəri fehrisdə "Risalə əl-qurbə liş-Şeyx əl-Əkbər" adlanır, lakin əsərin əvvəlində bəsmələdən əvvəl əsərin adı "Risalə liseyyidi əl-arif birəbbihi əş-Şeyx Sədrəddin əl-Konəvi fi mubayiə əhli təriqə əs-sufiyyə " kimi qeyd olunmuşdur. Sufi təriqətinin beyət bəhsi haqqında olan bu əsərin adına Şərq əlyazmalar kataloqlarında və bir çox ensiklopediya kitablarında qeyd olunan Sədrəddin əl-Konəvinin əsərlərinin siyahısında rast gəlinmədi.

Məcmuənin 168b-173a vərəqlərini əhatə edən bu risalə məcmuəyə daxil olan o biri əsərlər kimi qırmızı rəngli mürəkkəblə çərçivəyə alınmış, Avropa istehsallı sarımtıl rəngli vərəqə qara mürəkkəblə nəsx xətti ilə köçürülmüşdür. Əsərdə bir çox sözlər qırmızı mürəkkəblə yazılmış, həmçinin bəzi ifadələrin üzərindən qara və qırmızı mürəkkəblə xətt çəkilmişdir.

Məcmuəyə daxil olan sonuncu-dördüncü əsərin adı fehristə "Risalə əl-muzadədə liş-Şeyx əl-Əkbər" adı kimi verilmiş, bəsmələdən əvvəl isə risalənin adı "əl-Muzadədə fi elmi əz-zahir və əl-batin subhanə əz-zahir əl-batin liş-Şeyx Muhyiddin əl-Əkbər" kimi adlandırılmışdır. Təssəvvüfdən bəhs edən bu əsərin kataloqlarda adı "Muqalat fi bəyan zikr əz-zahir vəl-batin" kimi qeyd olunmuşdur [7,2610,№7062/47]. Əsərin adından göründüyü kimi bu risalə Muhyiddin əl-Əkbər adı ilə məşhur olan Məhəmməd b. Əli b. Məhəmməd əl-Hatimi ət-Tai əl-Ərəbinin "əl-Muhavira fi əz-zahir vəl-batin" [7,2932,№7899/218]əsərinə qarşı olaraq yazılmışdır.

Risalə məcmuənin 173b-186a vərəqlərini əhatə edir və əvvəlki əsərlərdə olduğu kimi burada da əsərin adı bəsmələdən əvvəl qırmızı mürəkkəblə yazılmışdır. Burada da risalə qara mürəkkəblə nəsx xətti ilə köçürülmüş və bəzi sözlər qırmızı mürəkkəblə yazılmışdır. Əsər bitdikdən sonra əlyazma məcmuəsinin son vərəqində müxtəlif rəqəmlərdən və Allahın "Huvə", "Rəbb", "Kərim", "Rəhim", "Vahhab" adlarından ibarət cədvəl verilmişdir.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan mütəsəvvif və mütəfəkkir alim Sədrəddin Konəvinin əsərlərindən ibarət olan bu əlyazma məcmuəsi Azərbaycanda eləcə də İslam ölkələrində alimin elmi irsinin araşdırılmasına və bu sahədə yeni-yeni tədqiqat işlərinin yaranmasına kömək ola bilər.

**Ədəbiyyat:**

1. www.mebkam.com/makale
2. Türkiye Diyanet Vakfı. İslam Ansiklopedisi. İstanbul:2008, c. XXXV,587 s.
3. https://tr.wikipedia.org/wiki/Sadreddin_Konevî
4. Əli Əkbər Dehxoda. Löğətname. Tehran: h.ş.1330, c.XXXI, 405 s.
5. konyaarastirmalari.blogspot.com/.../sadreddin-konevi.html

6. Türkiye Gazetesi. İslam alimleri ansiklopedisi. İstanbul: İhlas Matbaacılık Gazetecilik ve Sağlık Hizmetleri, c.IX, 383 s.
7. Ali Rza Karabulut, Ahmet Turan Karabulut. Dünya kütüphanelerinde mevcut islam kültür tarihi ile ilgili eserler ansiklopedisi. Kayseri: c.IV, 2413-3049s.
8. Mustafa b. Abdulla əş-Şəhir bi hacı Xəlifə və bi Katib Çələbi. Kəşf əz-zunun. İstanbul: 1943, c.II, 945-2056 s.
9. Şəmsəddin Sami. Qamus əl-aləm. İstanbul: Mihran mətbəəsi, h.1311, c.IV, 2404-3200s.
10. Ramazan Şeşen, Cavad İzgi, Cəmil Akpinar. Köprülü kitabxanasının əlyazmalar kataloqu. İstanbul: 1986, c.II,647s.
11. www.shaziliaassemia.com
12. Sədrəddin Konəvi. Şərhu əsmaullah əl-husna. Əlyazmalar məcmuəsi. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.186v.

*Аида Мусейибова*

## ТУРЕЦКИЙ УЧЁНЫЙ САДР АД-ДИН АЛ-КУНАВИ И ЕГО ПРОИЗВЕДЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ РУКОПИСНОМ СБОРНИКЕ

**Резюме**

В Институте рукописей имени Мухаммеда Физули НАН Азербайджана хранятся ценные произведения ученыхразных областей науки, а также знаменитых исламских учёных. Одним из письменных памятников является сборникрукописных работтурецкого суфийского учёного Садр ад-Дина Мухаммада б. Исхаг б. Мухаммада б. Юсиф ал-Кунави,состоящий из четырех произведений,посвященных исламской религии. В статье, в целом, отмечается, что до наших дней дошли более 55-ти произведений Садр ад-Дина ал-Кунави -видного представителя суфийского тариката и продолжателя взглядов Ибни Араби «вахдат ал-вуджуд» (единство бытия).

*Aida Museyibova*

## SADRADDİN KONAVİ, A TURKİSH SCHOLAR AND A COLLECTİON OF THE AZERBAİJANİ MANUSCRİPTS OF HİS WORKS

**Summary**

In the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS are preserved numerous valuable works of many scholars, including those ones of the Islamic scholars dedicated to the different fields of science. One of those written monuments is a collection of manuscripts which consists of four works written by the Turkish Sufi scholar Sadraddin Mahammad bin Ishaq bin Mahammad bin Yusif Konavi. The works included this collection deal with the different fields of science of the Islamic religion. Some of these works haven't been met in the catalogues of the Oriental manuscripts and encyclopaedias. In general, in the sources are shown more than fifty five works on different topics written by Sadraddin Konavi, a well-known representative of Sufi sect and a successor of Ibni Arabi's conception called "vahdati-vujud" (union of existence).